**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akad. H.Ə.ƏLİYEV adına COĞRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**FAMİL QAĞAMALI OĞLU NİFTİYEV**

# LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNDA SOSİAL İNFRASTRUKTURUN İNKİŞAFI VƏ ƏRAZİ TƏŞKİLİNİN COĞRAFİ PROBLEMLƏRİ

5401.01 – İqtisadi coğrafiya

Coğrafiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi AMEA akad.H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun "Azərbaycanın iqtisadi və siyasi coğrafiyası" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər :** akademik **R.M.Məmmədov**

**Rəsmi opponentlər :** c.ü.e.d. **Z.N.Eminov**

c.ü.f.d. **M.R.Musayeva**

**Aparıcı təşkilat:** **ADPU, Tarix və coğrafiya fakultəsi, "İqtisadi coğrafiya və CTM" kafedrası**

Müdafiə 19 may 2017-ci il, saat $14^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası akad.H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən D 01.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

*Ünvan : Az 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akad.H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*

Dissertasiya işi ilə AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq olar.

Möhürlə təsdiq olunmuş rəyləri iki nüsxədə bu ünvana göndərməyiniz xahiş olunur: Az 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA-nın əsas binası, 8-ci mərtəbə, akad.H.Ə.Əliyev adına Coğrafiya İnstitutu

Avtoreferat 18 aprel 2017-ci ildə göndərilmişdir.

**D01.091 Dissertasiya Şurasının**
**elmi katibi, coğrafiya üzrə**
**fəlsəfə doktoru, dosent** **M.S.Həsənov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Elmi-texniki tərəqqi dövründə cəmiyyətin mədəni inkişaf səviyyəsi yüksəldikcə, sosial infrastruktur təkcə təsərrüfat strukturunun bir elementi deyil, həmçinin insanların həyat tərzinə çevrilir. Mənzil-kommunal təsərrüfatı, ictimai iaşə, məişət xidməti, səhiyyə, elm, təhsil, mədəniyyət, incəsənət, rabitə, ictimai nəqliyyat, turizm  və.s cəmiyyətin həyat fəaliyyəti və inkişafı üçün olduqca zəruri sahələridir.

Lənkəran-Astara iqtisadi rayonunun sosial-iqtisadi və demoqrafik inkişafında sosial infrastrukturun böyük rolu vardır. Müstəqillik dövründən əvvəl ərazinin intensiv mənimsənilməsi, eyni zamanda burada kurort təsərrüfatının inkişafı xidmət sahələrinə və qeyri-istehsal müəssisələrinin inkişafına diqqətin artırılmasını zəruri etmişdir. Lakin bu dövrdə regionda sosial infrastrukturun inkişafında müəyyən çatışmazlıqlar olmuşdur. Onlar  respublika miqyasında xidmət sahələrində olan problemlər ilə bağlıdır. İqtisadi rayon üçün uzun müddət sosial infrastruktur sahələrinin müasir tələblər səviyyəsində inkişaf etməməsi, o cümlədən inzibati rayon mərkəzlərində adambaşına düşən mənzil fondunun nisbətən aşağı göstəricisi, kommunal təsərrüfatın, əhalinin enerji təminatının və kanalizasiya sisteminin zəif inkişafı, ərazinin müalicəvi balneoloji ehtiyatlarından tam və səmərəli istifadə olunmaması və s. səciyyəvi idi.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra, xüsusilə son 10 ildən artıq müddətdə Lənkəran-Astara iqtisadi rayonunun sosial infrastruktur sahələrinin inkişafına dair müvafiq dövlət proqramlarına uyğun olaraq, xeyli işlər görülmüşdür. Bununla yanaşı, hazırda iqtisadi rayonda sosial infrastrukturla bağlı bir sıra istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi vacibdir. Bu baxımdan iqtisadi rayonda sosial infrastrukturun inkişafına dair prioritet istiqamətlərin müəyyənləşdirilməsi, yerli coğrafi şərait nəzərə alınmaqla aparılacaq tədbirlərin səmərəliliyinin təmin olunması və sosial infrastrukturun ərazi təşkilinin iqtisadi-coğrafi cəhətdən əsaslandırılması mühüm əhəmiyyət kəsb edir. Məhz bu amillər  Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun inkişafı və ərazi təşkilinin coğrafi problemlərinin həlli yollarının araşdırılmasını aktual edir.

**Tədqiqat obyekti** Lənkəran-Astara iqtisadi rayonunun tərkibində olan 6 inzibati rayonun sosial infrastruktur sahələrinin səmərəli ərazi təşkili və onların yenidən qurulması istiqamətləridir.

**Tədqiqatın predmeti** Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun inkişaf və ərazi təşkilində mövcud problemlərdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin məqsədi Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastruktur sahələrinin inkişafının və ərazi təşkilinin səmərəliliyinin artırılması yollarını araşdırmaq, həlli zəruri olan problemləri aşkarlamaq və prioritet istiqamətləri müəyyənləşdirməkdir. Bu məqsədlə tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- təbii şərait və təbii ehtiyatları sosial infrastrukturun ərazi təşkili baxımından qiymətləndirmək;
- sosial infrastruktur sahələrinin müasir vəziyyətini iqtisadi-coğrafi aspektdə tədqiq etmək;
- sosial infrastrukturun ayrı-ayrı sahələrinin ərazi təşkilinə və inkişaf səviyyəsinə görə dağlıq və düzənlik, şəhər və kənd, həmçinin inzibati rayonlar arasındakı fərqləri aşkar etmək;
- sosial infrastrukturun daha səmərəli ərazi təşkili yollarını axtarmaq və bu sahənin inkişaf perspektivlərini müəyyən etmək.

**Problemin öyrənilmə səviyyəsi.** Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun ərazi təşkili, bu sahənin göstərdiyi xidmətlərin yüksəldilməsi yolları ayrı-ayrı tədqiqatçıların əsərlərində öyrənilməsidir. Müstəqillik illərində bu sahənin yenidən qurulması üçün xeyli işlər görülmüşdür.Onların elmi-nəzəri əsaslarının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu zaman sahənin inkişaf perspektivlərinin də işlənib hazırlanması vacib vəzifələrə aiddir.

**Tədqiqat metodları.** Dissertasiyanın yazılmasında müqayisə, kartoqrafik, çöl-tədqiqat tarixi-coğrafi yanaşma, statistik təhlil və s. metodlardan istifadə olunmuş, həmçinin müəllifin topladığı materiallara əsaslanmışdır. Toplanan məlumatlar əsasında müvafiq kompüter proqramlarından istifadə etməklə xəritələr hazırlanmışdır.

**Tədqiqatın informasiya bazası.** Lənkəran-Astara iqtisadi rayonunun sosial infrastruktur göstəricilərinin çoxillik dinamikasını təhlil etmək üçün Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları, AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun və AMEA İqtisadiyyat İnstitutunun elmi hesabatları, həmçinin Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair 2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə Dövlət proqramları, sosial-iqtisadi inkişafla bağlı digər mühüm proqramlar və qanunlar və s. təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastruktur sahələrinin inkişafını şərtləndirən təbii şəraitin və iqtisadi-coğrafi amillərin qiymətləndirilməsi;
- Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastruktur sahələrinin müasir vəziyyəti, mövcud problemləri və onların həlli yolları;
- Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun inkişafı və ərazi təşkilinin perspektivləri.

**Tədqiqat işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Lənkəran-Astara iqtisadi rayonunun sosial infrastruktur sahələri kompleks şəkildə iqtisadi-coğrafi aspektdə tədqiq olunmuşdur;
- Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun ayrı-ayrı sahələrinin ərazi təşkilinə və inkişaf səviyyəsinə görə dağlıq və düzənlik, şəhər və kənd, həmçinin inzibati rayonlar arasındakı fərqlər aşkar olunmuş, bu sahənin inkişaf perspektivləri müəyyən edilmişdir;
- Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastruktur sahələrinin göstərdiyi xidmətlərin yüksəldilməsi yolları müəyyən edilmişdir.

**Tədqiqat işinin elmi-praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəticələri Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastruktur sahələrinin inkişaf etdirilməsi və bu prosesin səmərəliliyinin artırılması baxımından mühüm praktiki əhəmiyyət daşıyır. Tədqiqat işinin məzmununda əksini tapmış tövsiyələr, verilən təkliflər iqtisadi rayonda sosial infrastruktur sahələrinin ərazi təşkilində, regionun iqtisadi-coğrafi baxımdan inkişafında və dövlət proqramları tərtib olunan zaman istifadə oluna bilər. Bununla yanaşı, dissertasiyada aparılan təhlillər, müəyyən olunan tendensiyalar, xəritələr və s. gələcək tədqiqatlarda ali və orta ixtisas məktəblərində istifadə üçün mənbədir.

**Tədqiqatın aprobasiyası.**

Dissertasiya işinin ayrı-ayrı hissələri, müddəaları və əsas nəticələri "Müasir coğrafiya elminin tətbiqi istiqamətləri" elmi-praktik konfransda (Bakı, 2014), "Müasir qlobal dəyişmələrə geo- və təbii-təsərrüfat sistemlərinin adaptasiyası problemləri" Beynəlxalq elmi-praktik konfransda (Bakı, 2015), "Azərbaycan regionlarının coğrafi problemləri" konfransda (Bakı, 2016) məruzə edilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə, təkliflər, 156 səhifəlik yazılı mətn, həmçinin 24 cədvəl, 4 xəritə, 4 diaqram və 110 adda ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYA İŞİNİN QISA MƏZMUNU

Giriş hissədə mövzunun aktuallığı, öyrənilmə səviyyəsi, məqsəd və vəzifələri, tədqiqatın obyekti və predmeti, nəzəri və metodoloji əsasları, informasiya bazası, elmi yenilikləri, praktiki əhəmiyyəti müəyyən edilir.

Dissertasiya işinin birinci fəsli **"Sosial infrastruktur sahələrinin iqtisadi-coğrafi inkişaf xüsusiyyətləri"**nə həsr edilmişdir. Bu fəsildə sosial infrastruktur anlayışı və onun nəzəri-metodiki əsasları öyrənilmiş, sosial infrastrukturun təsərrüfat sistemində yeri və inkişafını müəyyən edən amillər öyrənilmiş, tədqiqat regionu olan Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun inkişafı və ərazi təşkilinin tarixi-coğrafi xüsusiyyətləri araşdırılmışdır.

Müasir dövrdə sosial infrastrukturun inkişafı cəmiyyətin tərəqqisinin əsasını təşkil edir. Əhaliyə xidmət göstərən bütün qeyri-istehsal sahələri bütövlükdə iqtisadi inkişafa zəmin yaradır. Sosial infrastruktur insanların rahatlığının təmin olunmasında və yaşayış şəraitinin yaxşılaşdırılmasında, eləcə də əhalinin təkrar artımı prosesində, iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Bu sahə bir tərəfdən ictimai həyatın zəruri elementi, sosial siyasətin reallaşdırılmasının əsası, digər tərəfdən əhalinin sosial tələbatının daha yüksək səviyyədə ödənilməsi, əhalinin layiqli həyat şəraiti ilə təmin olunması kimi qiymətləndirilir.

Sosial infrastruktur, onun inkişafı, regional ərazi təşkili, əhaliyə göstərilən xidmət sahələrinin yaxşılaşdırılması məsələlərini xarici ölkə alimlərndən J.T.Toşenko,V.A.Jamin, A.D.Pavlova, A.N.Alımov, A.İ.Koçerqa, E.P.Qorbunovun və s., Azərbaycan alimlərindən isə Z.Ə.Səmədzadə, M.A.Abramov, S.K.Hüseynov, Ə.Q.Əlirzayev, V.T.Novruzov, F.P.Rəhmanov, Z.N.Eminov və digər alimlər öyrənmişlər.

Tədqiqat apardığımız Lənkəran-Astara iqtisadi rayonunun sosial-iqtisadi və demoqrafik inkişafında sosial infrastruktur çox mühüm rol oynayır. Regionda uzun müddət sosial infrastruktur sahələri müasir tələblər səviyyəsində inkişaf etdirilməmişdir. Uzun müddət inzibati rayon mərkəzlərində məişət-kommunal təsərrüfatı zəif inkişaf etmiş, mənzillə təminat göstəriciləri aşağı olmuş, kanalizasiya sistemi

və qaz təminatı istənilən səviyyədə təşkil olunmamış, regionun turizm rekreasiya resurslarından tam istifadə olunmurdu. Nəticədə iqtisadi rayondan əhalinin miqrasiyası kütləvi xarakter almış, görülən tədbirlər isə yetərli olmamışdır. Bu baxımdan, hazırda regionun mövcud təbii resurslarından, əmək ehtiyatlarından, iqtisadi potensialından tam istifadə olunması sosial infrastrukturun səmərəli ərazi təşkili, sosial xidmətlə bağlı mövcud problemlərin həll yollarının axtarılması zəruridir.

Lənkəran-Astar iqtisadi rayonunun təbii şəraiti sosial infrastruktur sahələrinin ərazi təşkili baxımından əlverişlidir. Bu, konkret olaraq iqtisadi rayonun relyef və iqlim şəraiti, Xəzərsahili mövqeyi, mineral və termal suları, zəngin rekreasiya-balneoloji ehtiyatları, bol insan resursları və s. kimi amillərlə əlaqədardır. Ərazisinin əksər hissəsinin təbii şəraiti istər məskunlaşma baxımından, istərsə də istehsal və infrastruktur sahələrinin ərazi təşkili, o cümlədən yaşayış binalarının tikintisi, magistral və yerli əhəmiyyətli yolların, elektrik ötürücü xətlərin çəkilməsi, kanalizasiya sisteminin qurulması, turizmin inkişafı və s. baxımından əlverişlidir.

Sosial infrastruktur sahələrinin inkişafını demoqrafik proseslərin gedişi, məskunlaşma prosesinin xüsusiyyətləri, əhalinin yaş-cins və s. tərkibi, doğum, ölüm və təbii artımın səviyyəsi və s. müəyyən edir. Digər tərəfdən, sosial xidmət sahələrinin inkişaf etdirilməsi, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, əhalinin miqrasiyası, əmək ehtiyatlarının məşğullının məsələləri ilə sıx bağlıdır. Regionda sıx mənimsənilən yerlər torpaq-iqlim şəraiti baxımından əlverişli olan dağətəyi sahələrdir. Bu hündürlük qurşağının cənub-şərq hissəsində subtropik əkinçilik də daxil olmaqla, bitkiçilik inkişaf etmişdir. Burada kənd təsərrüfatı məhsulunun 90%-ni əkinçilik verir. Torpaq fondu azlıq təşkil etsə də, məhsuldarlığın nisbətən yüksək olması səciyyəvidir. Tərəvəzçilik, həmçinin meyvəçilik regionda bitkiçiliyin yaxşı inkişaf etdiyi sahələrdir. Əlverişli iqlim şəraitinin ildə iki dəfə məhsul götürülməsinə imkan verməsi də nəzərə alınmaqla, iqtisadi rayonun kənd təsərrüfat sahələri əhalinin, turistlərin, restoranların, istirahət mərkəzlərinin tərəvəz məhsulları və meyvələrlə il boyu təmin edilməsinə imkan verir.

Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun inkişafına təsir göstərən iqtisadi amillərdən biri də regionda fəaliyyət göstərən sənaye müəssisələridir. Sənaye ölkənin iqtisadi gücünü və qüdrətini müəyyən əsas amillərdən biridir. Sənaye sahələrindən əldə edilən gəlir isə regionun inkişafına və sosial infrastrukturun müasir

tələblər səviyyəsində qurulmasına yardım göstərir. İqtisadi rayonda çay emal fabriklər Lənkəran və Astarada, meyvə-tərəvəz konserv kombinatı Lənkəranda, mebel istehsalı  Masallıda , şərab zavodu isə Cəllabad inzibati rayonunda fəaliyyət göstərir.

Bununla yanaşı,  Lənkəran-Astara iqtisadi rayonunun ərazisi mineral və termal sularla zəngindir. Onların xeyli hissəsinin müalicəvi-sağlamlaşdırıcı əhəmiyyətə malik olması regionda sanatoriyaların, tibb mərkəzlərinin inkişafı, əhaliyə xidmət göstərən müalicə  vannalarının təşkili baxımından  əhəmiyyətlidir. Regionda mineral və termal suların ümumi debiti 662,4 min l/sutkadan çoxdur.Termal suların tərkibi sulfidli, hidrogen sulfidli və natrium xloridli, temperaturu isə 40-80°C-dir. Tərkibində kükürdün çox olduğu bu sular (Ərkivan, Ənci, Meşəsu, Yuxarı Lənkəran, Aşağı Lənkəran, İbadisu, Biləsər, Qızılca, Qotursu, İstisu, Daşvənd, Qəriblər, Taxtakəran, Hövzava, Həftoni və s.) ürək-damar xəstəliklərinin müalicəsində faydalıdır.

Respublikamızda sosial infrastrukturun inkişafına investisiya qoyuluşu uzun müddət tələb olunan səviyyədə həyata keçirilməmiş, iqtisadi inkişafla sosial şərait səmərəli əlaqələndirilməmişdir. İqtisadi rayonda sosial infrastrukturun inkişafını təmin etmək üçün investisiyalar artırılması zəruridir.

Dissertasiya işinin ikinci fəsli **“İqtisadi rayonda sosial infrastruktur sahələrinin inkişafı və ərazi təşkili”** adlanır. Bu fəsildə Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun ən mühüm sahələri olan mənzil təsərrüfatı və kommunal xidmətlər (işıq, qaz, su və s.), rabitə-kommunikasiya xidməti, sərnişindaşıma, təhsil, səhiyyə, turizm kimi sahələrin inkişafı və ərazi təşkilinin mövcud vəziyyəti araşdırılmış və təhlil olunmuşdur.

Sosial infrastrukturun ən mühüm sahələrindən biri mənzil-kommunal və əhaliyə məişət xidməti sahələridir. İnsanların yaşaması və aktiv həyat tərzi sürməsi, üçün onların mənzillə təmin olunması zəruridir. Kommunal təsərrüfatın inkişaf etməsi, onun kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılması insanların normal həyat sürməsini və rahatlığını təmin edir. Kommunal təsərrüfatın yüksək inkişaf etməsi digər sosial infrastruktur sahələrinə olan tələbatı artıran amil kimi çıxış edir. Çünki insanlar əvvəlcə yaşayış yeri ilə, yaşamaq üçün zəruri olan su, istilik, enerji ilə təmin olunurlar.

Sosial infrastruktur sistemində əhalinin mənzil-kommunal şəraitinin və xidmətlər səviyyəsinin getdikcə yaxşılaşdırılması dövlət siyasətinin mühüm tərkib hissəsidir. Buna görə də mülkiyyət və

təsərrüfatçılıq formasından asılı olmayaraq dövlət mənzil fondunun daim artırılması siyasətini yürüdür.

1990-cı illərin sonu, 2000-ci illərin əvvəllərində Lənkəran-Astara iqtisadi rayonunda mənzil-kommunal təsərrüfatı xidmətlərinin artım tempi nisbətən ləng olmuşdur. Lakin, iqtisadi rayon üzrə bütün mənzil fondu 2000-ci ildə 9644 min $m^2$olmuşdursa, 2015-cü ildə bu göstərici artaraq 16597 min $m^2$ təşkil etmişdir. Bu da respublika üzrə ümumi göstəricinin 9,7%-i deməkdir.

Əhalinin mənzillə təminatı səviyyəsinin əsas göstəricisi hər nəfərə düşən mənzil sahəsidir. 2000-ci ildə Lənkəran-Astara iqtisadi rayonunda bir sakinə düşən yaşayış sahəsi 13,1 $m^2$ təşkil etdiyi halda 2015-cü ildə bu göstərici 18,3 $m^2$ olmuşdur. Bu da ümumi respublika göstəricisindən (17,8 $m^2$) yüksəkdir.

Mənzil-kommunal təsərrüfatı təkcə əhalinin yaşayış yeri ilə təmin olunması ilə bitmir. Mənzil sakinlərinin yaşayış üçün zəruri olan istilik, elektrik enerjisi, qaz, su ilə təminatın, kanalizasiya xəttinin, zibillərin toplanması və daşınmasının, lift xidmətinin və s. təşkili kommunal təsərrüfatın tərkib hissəsidir.

Cədvəl 1

Ev təsərrüfatlarının kommunal xidmətlərlə təminat səviyyəsi (faizlə)

| Ərazi | Kommunal xidmətlərin növləri | | | |
|---|---|---|---|---|
| | Elektrik enerjisi | Təbii qaz | Su xətti | Kanalizasiya |
| Astara | 99,74 | 41,4 | 12,8 | 5,0 |
| Cəlilabad | 99,86 | 28,8 | 19,3 | 6,1 |
| Lerik | 99,84 | 16,0 | 17,8 | 0,5 |
| Lənkəran | 99,97 | 29,5 | 20,2 | 15,2 |
| Masallı | 99,94 | 39,0 | 9,2 | 6,8 |
| Yardımlı | 99,70 | 15,3 | 15,0 | 3,6 |
| İqtisadi rayon | 99,89 | 31,6 | 15,8 | 8,2 |
| Respublika | 99,94 | 62,8 | 64,3 | 41,2 |

**Mənbə:** Azərbaycan Respublikası əhalisinin siyahıyaalınması 2009. XVII cild, s. 509-530.

1990-cı illərdə Lənkəran-Astar iqtisadi rayonunda istər elektrik enerjisi, istərsə də qazın verilməsində müntəzəm olaraq fasilələr olmuş, xüsusən qış mövsümündə əhalinin işıq və qaz təminatında ciddi çətinliklər yaranmış, əhali yanacaq kimi odundan istifadə etməyə məcbur olmuşdur. Bununla əlaqədar ərazidəki meşələr qırılmışdır.

Lakin sonrakı illərdə həyata keçirilən sosial iqtisadi yönümlü tədbirlər regionda əhalinin maddi güzaranının yaxşılaşdırılmasına müsbət təsir göstərmişdir.

Təhsil iqtisadiyyatın tələbatına uyğun ixtisaslı kadrların hazırlanmasına xidmət edir. Ölkə əhalisinin təhsil və eyni zamanda mədəni səviyyəsinin yüksəlməsi təhsilin keyfiyyətindən, ümumtəhsil müəssisələrində tədris prosesinin səmərəli təşkilindən asılıdır. Təhsilin keyfiyyətinin artırılması ölkənin gələcək elmi-texniki potensialının, ümumi sosial-iqtisadi inkişaf səviyyəsinin artırılmasına, regionların gələcək inkişafına təsir göstərən çox mühüm amildir. Təhsil sahəsi ixtisaslı kadrların yetişdirilməsinə, yenidən hazırlanmasına, zəruri peşə biliklərinin verilməsinə xidmət edir.

Cədvəl 2

2015-ci il üzrə sosial infratrukturun bəzi göstəriciləri

| Ərazi | Əhalinin sayı (min nəfər) | Əhalinin hər 10000 nəfərinə həkimlərin sayı | Əhalinin hər 10000 nəfərinə orta tibb işçilərin sayı | Təhsil | | Mədəniyyət | |
|---|---|---|---|---|---|---|---|
| | | | | Əyani ümumi təhsil müəssi-sələrinin sayı | II və III növbədə oxuyanla-rın xüsusi çəkisi, faizlə | Kitab-xana | Klub |
| Astara | 105,2 | 9,2 | 41,2 | 63 | 7,4 | 50 | 47 |
| Lerik | 81,9 | 6,5 | 20,3 | 107 | 13,4 | 64 | 66 |
| Lənkəran | 223,1 | 18,7 | 47,0 | 89 | 15,3 | 72 | 79 |
| Yardımlı | 64,2 | 7,3 | 19,0 | 80 | 11,0 | 45 | 27 |
| Masallı | 218,5 | 10,2 | 22,9 | 98 | 8,3 | 52 | 33 |
| Cəlilabad | 213,0 | 11,0 | 30,2 | 125 | 19,0 | 64 | 44 |
| İqtisadi r-n | 905,9 | 11,8 | 32,1 | 562 | 13,0 | 347 | 296 |
| Respublika | 9705,6 | 33,9 | 57,3 | 4462 | 14,2 | 3242 | 2650 |

**Mənbə:** Azərbaycan regionları,2016.s.319-382.

Lənkəran-Astara iqtisadi rayonunda məktəbəqədər təhsil müəssisələrinin sayı 2005-2015-cü illərdə 123-dən 121-ə enmişdir. Buna səbəb dövlət proqramları çərçivəsində müasir tipli məktəbəqədər təhsil müəssislərinin tikilməsi olmuşdur. Buna baxmayaraq, məktəbəqədər müəssisələrdə uşaqların sayında isə (6560-dən 6600-ə) artım qeydə

alınmışdır. Məktəbəqədər təhsil müəssisələrində 100 yerə düşən uşaq hesabı ilə təminat göstəricisi yüksəlmişdir.




**Şəkil.** Lənkəran-Astara iqtisadi rayonunun tibb müəssisələri və onlarda çalışan işçilərin sayı (2015)

Sosial infrastrukturun çox mühüm sahəsi olan səhiyyə sistemi əhalinin sağlamlığının bərpası və qorunması funksiyasını yerinə yetirir. İnsanların, o cümlədən gənc nəslin fiziki cəhətdən sağlam olması, onların normal həyat sürərək cəmiyyətin inkişafı üçün zəruri olan əmək fəaliyyəti ilə məşğul ola bilməsi baxımından hər zaman inkişaf etmiş səhiyyə sisteminə, tibbi xidmətə böyük ehtiyac vardır. Bu baxımdan səhiyyə sahəsi ümumən sosial sferanın ən vacib sahələrindən biri hesab olunur.

Lənkəran-Astara iqtisadi rayonunun 2015-ci il üzrə səhiyyə göstəricilərinin ölkə üzrə olan göstəricilərlə müqayisəsi göstərir ki, tədqiq olunan regionun payına xəstəxana müəssisələrinin 6,7%-i, xəstəxana çarpayılarının 3,7%-i, həkimlərin personalının 3,3%-i, orta tibb işçilərinin 5,3%-i, ambulator poliklinika müəssisələrinin 10,2%-i düşür. Azərbaycanda əhalinin hər 10000 nəfərinə 65 xəstəxana çarpayısı, 34 həkim və 57 orta ixtisaslı tibb işçisi düşdüyü halda, Lənkəran-Astara iqtisadi rayonu üzrə həmin göstəricilər 19 xəstəxana çarpayısı, 12 həkim və 32 orta ixtisaslı tibb işçisi təşkil edir.

Lənkəran-Astara iqtisadi rayonunda səhiyyə infrastrukturunun inkişafında, tibb personalının kəmiyyət-struktur göstəricilərində, tibbi xidmətin keyfiyyəti məsələsində və s. müəyyən problemlər hələ də özünü göstərir.

Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun ən mühüm sahələrindən biri turizmdir. Bu sahə eyni zamanda iqtisadi rayonun ən prioritet sahələrindən sayılır. Turizm infrastrukturunun ən mühüm tərkib hissəsi olan yerləşmə müəssisələri daha çox Lənkəran, Masallı, Lerik (Lənkəran-Lerik yolu) rayonlarında cəmlənmişdir. Mehmanxana və istirahət mərkəzlərinin 78%-i təkcə Lənkəran və Masallı rayonlarının payına düşür. 2015-cü ildə Lənkəran-Astara iqtisadi rayonunun ölkə turizmində payı mehmanxana və mehmanxana tipli müəssisələrin sayında 12,7%, birdəfəlik yer tutumunda 7,4%, yerləşdirilmiş qonaqların sayında isə 2,0% olmuşdur.

Lənkəran-Astara iqtisadi rayonunda istirahət və turizmin maddi texniki bazası zəiifdir. Bu, istirahət və turizm üçün yaradılan infrastrukturun pərakəndə xarakter daşıması, vahid əlaqələndirici sistemin olmaması ilə əlaqədardır. Onilliklər ərzində dağ meşə landşaftının intensiv antropogen təsirlərə məruz qalması, beynəlxalq turizm standartlarına uyğun infrastrukturun yaradılmaması, tarixi-memarlıq abidələrinin baxımsızlığı turizmin inkişafına mənfi təsir göstərmişdir. Yalnız Lənkəran

və Masallı rayonlarında müasir infrastrukturun yaradılması turizm təsərrüfatının inkişafına təkan vermişdir.

Lənkəran-Astara iqtisadi rayonunda kənd turizmi son illər daha sürətlə inkişaf etdirilir. Regiona gələnlərin 1/4-nin kənd evlərində qalması bunun əyani sübutudur. Özünəməxsus landşaftları və meşə sahələri ilə seçilən ərazilərlə bərabər, regionun mətbəxi, etnoqrafik abidələri, Novruz bayramı keçirmək üçün özünəməxsus adət-ənənələr, milli irs və s. amillər kənd turizminin inkişafına əlverişli şərait yaradır. Regionda kirayə olunmuş evlərin əksəriyyətində daimi isti və soyuq su olmaması, sanitar qovşaqların tələblərə cavab verməməsi, kanalizasiya sistemləri ilə zəif təminat bir sıra problemlərin yaranmasına səbəb olur. Buna görə də kirayə olunmuş evlərin təbii şəraiti ilə yanaşı komfortluluğu da nəzərə alınmalıdır.

Lənkəran-Astara iqtisadi rayonunda turizm-rekreasiya təsərrüfatının inkişafı təbii rekreasiya resurslarının təsərrüfata cəlb olunması, bu sahənin regionun iqtisadi inkişafında rolunun yüksəldilməsi üçün yerli sahibkarlığa şərait yaradılması vacibdir.

Sosial infrastrukturun mühüm sahələrindən biri sərnişindaşıma xidmətidir. Sərnişindaşıma xidməti əhalinin daşınmasına, istehsal və yaşayış sahələri üzrə insanların öz ehtiyacları ilə bağlı olaraq müəyyən ərazilərə getmələrinə imkan verir. Bununla da sərnişindaşıma xidməti sənaye, tikinti kimi maddi istehsal sahələrinin, həmçinin sosial infrastrukturun digər sahələrinin normal fəaliyyətini tənzimləmiş olur, sərnişinlərin mənzilbaşına tez və vaxtında çatdırılması təmin edilir.

Lənkəran-Astara iqtisadi rayonunda əhalisi daha çox olan rayonlarda sərnişindaşıma xidmət göstərən avtobusların sayı da nisbətən çoxdur. Bununla belə, əhalinin hər 10000 nəfərinə düşən sərnişin avtobuslarının sayını hesablayarkən məlum olur ki, həmin göstəriciyə görə rayonlar arasında fərqlər daha böyükdür. 2005-2015-ci illərdə iqtisadi rayon üzrə sərnişindaşımada artım 90,6% təşkil etmişdir. Həmin dövrdə müvafiq göstərici Lənkəranda 105%, Astarada 99%, Yardımlıda 81%, Lerikdə 79%, Masallıda və Cəlilabad rayonlarında 75% olmuşdur.

Dissertasiyada Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastruktur sahələri olan rabitə və kommunikasiya, ticarət, elm, mədəniyyət, idman və bədən tərbiyəsi, ictimai iaşə xidmətlərinin inkişafı təhlil olunur.

Elmi-texniki tərəqqinin nailiyyətlərinin daha geniş miqyasda və yüksək texniki səviyyədə tətbiq olunduğu son 15 ilə yaxın müddətdə

rabitə sahəsində mühüm irəliləyişlər baş vermişdir. Rabitə sistemində elektronlaşma, avtomatlaşma, işin operativ təşkili, informasiyanın daha sürətli çatdırılması, rəqəmsal yayım və s. istiqamətində mühüm tədbirlər görülmüş, əhalinin bu xidmətdən daha keyfiyyətli şəkildə istifadə etmək imkanı təmin edilmişdir. 2000-2015-ci illərdə Lənkəran-Astara iqtisadi rayonunda poçt şöbələrinin sayı 147-dən 177-yə çatdırılmışdır. İqtisadi rayonda ATS-lərin sayı 2002-ci ildə 154 vahid idisə, 2015-ci ildə 184 olmuşdur. ATS-lərin ümumi nömrə tutumunda da mühüm dəyişikliklər qeydə alınmışdır. Belə ki, iqtisadi rayonda 2000-2015-ci illərdə həmin göstərici 58730-dan 98132-yə çatdrılmışdır. Poçt xidmətlərinin həcmi 2010-2015-ci illərdə 323 min manatdan 1626 min manata yüksəlmişdir, yəni 5,0 dəfə artmışdır. İqtisadi rayonunda göstərilmiş informasiya və rabitə xidmətlərinin ümumi həcmi 2000-2015-ci illərdə 1776 min manatdan 5841 min manata yüksəlmişdir, yəni 3,3 dəfə artmışdır. İqtisadi rayonda telekommunikasiya xidmətlərinin həcmi 2000-2015-ci illərdə 1776 min manatdan 5731 min manata yüksəlmişdir.

Lənkəran-Astara iqtisadi rayonunda bir tədqiqat müəssisəsi – Azərbaycan Milli Elmlər Akademiyasının Lənkəran Regional Elm Mərkəzi fəaliyyət göstərir. Yerinə yetirilmiş elmi-texniki işlərin həcmi 2005-ci ildə 0,4 min manat, 2015-ci ildə isə 143,8 min manat olmuşdur.

Lənkəran-Astara iqtisadi rayonunda 347 kitabxana vardır. Kitabxanaların kitab fondu 2802,8 min nüsxədir. Regionda 296 klub müəssisəsi fəaliyyət göstərir. İqtisadi rayon ərazisində 1 peşəkar teatr – Lənkəran Dövlət Dram Teatrı və 16 muzey vardır.

2016-cı ilin məlumatına görə, Lənkəran-Astara iqtisadi rayonunda 985 sayda müxtəlif növ idman qurğuları vardır. Burada 4 olimpiya idman kompleksi, 7 kompleks idman qurğusu, 7 üzgüçülük hovuzu mövcuddur.

Əhali arasında nisbətən yüksək tələbatı olan sahələrdən biri də məişət xidmətləridir. Əhali arasında ən çox göstərilən və istifadə olunan məişət xidmətlərinə paltar tikilişi, ayaqqabı təmiri, rənglənməsi və tikişi, dəri və ya xəz məmulatlarının, eləcə də qalantereya məmulatlarının, baş geyimlərinin tikişi, məişət cihazlarının təmiri, vətəndaşlara məxsus nəqliyyat vasitələrinin təmiri və onlara texniki xidmət, kimyəvi təmizləmə və boyama, camaşırxana xidməti, əhali üçün mebel hazırlanması, mənzil təmiri, fotoqrafiya və foto-kino laboratoriya xidməti, hamam və duş xidməti, bərbərxana, kirayə vermə məntəqələrinin xidməti və s. xidmətlər daxildir. Lənkəran-Astara iqtisadi rayonunda əhaliyə göstərilən məişət xidmətlərinin dəyəri 2005-ci ildə 9732,1 min

manatdan 2015-ci ildə 35408,0 min manata yükəslmişdir. Regionda göstərilən məişət xidmətlərinin payı Azərbaycan üzrə olan müvafiq göstəricinin 4,51%-i qədərdir. Adambaşına düşən məişət xidmətləri 2005-2015-ci illərdə 12,4 manatdan 39,3 manata yüksəlmişdir.

Əhaliyə göstərilən pullu xidmətlərin dinamikası göstərir ki, 2010-2015-ci illərdə Lənkəran-Astara iqtisadi rayonunda həmin xidmətlərin həcmi ilbəil yüksələn xətt üzrə getmişdir. Belə ki, pullu xidmətlər 2010-cu ildə 175068,2 min manat olmuşdusa, 2015-ci ildə 270541,9 min manata yüksəlmişdir, yəni 54,5% artmışdır. Əhalinin hər nəfərinə düşən pullu xidmətlərin dəyərinə gəldikdə isə, Azərbaycan üzrə bu göstərici 783 manat, Bakı şəhəri üzrə isə 1971 manat təşkil etdiyi halda, Lənkəran-Astarada cəmi 300 manat təşkil edir ki. Bu da ölkənin regionları arasında ən aşağı göstəricidir.

Dissertasiyanın **"İqtisadi rayonda sosial infrastruktur sahələrinin perspektiv inkişafı"** adlı üçüncü fəslində tədqiqat regionunun sosial infrastruktur sahələrində olan çatışmazlıqlar və onların aradan qaldırlması yolları bu sahədə tədbirlər və ərazi təşkilinin perspektivlərinə dair təkliflərin həyata keçirilməsi əks olunmuşdur.

Müstəqillik dövründə iqtisadiyyatın digər sahələrində olduğu kimi Lənkəran-Astara iqtisadi rayonunun sosial infrastruktur sahələrinin inkişafında da əhəmiyyətli dəyişikliklər baş vermişdir. Belə ki, inzibati rayonlarda xidmət sahələri üzrə olan çatışmazlıqlar müəyyən qədər aradan qaldırılmışdır.

İqtisadi rayonda mənzillərin su, qaz, kanalizasiya, istilik sistemi ilə normal təminatı vacib əhəmiyyət kəsb edir. Şəhər və kənd yaşayış məntəqələrində qeyd olunan su, qaz, xüsusilə istiliklə təminat sahəsində bir sıra çətinliklər mövcuddur. Bu baxımdan əhalinin mənzillə təmin olunması ilə yanaşı, mənzillərin yaşayış şəraiti göstəricilərinin yaxşılaşdırılması, evlərin, onların həyətyanı sahələrinin abadlaşdırılması, uşaq meydançalarının yaradılması, onların sahəsinin azalmasına yol verilməməsi, müvafiq əyləncə parklarının yaradılması da əhəmiyyətli məsələlərdir.

Lənkəran-Astara iqtisadi rayonunun sosial infrastruktur sahələrinin inkişafında, əhaliyə göstərilən müxtəlif növ xidmətlərin keyfiyyətinin artırılmasında, insanların təhsil, tibb və s. ehtiyaclarının, mənəvi-estetik tələbatlarının daha yüksək səviyyədə ödənilməsində dövlətin həyata keçirdiyi inkişaf proqramları böyük əhəmiyyət kəsb etmiş və hazırdada mühüm rol oynamaqdadır. Regionların inkişafına dair həyata keçirilmiş 2004-2008 və 2009-2013-cü illər üzrə, həmçinin

icra olunmaqda olan 2014-2018-ci illər üzrə sosial-iqtisadi inkişaf proqramları mühüm rol oynayır.

Regionların inkişafına dair dövlət proqramlarının həyata keçirilməsi ilə kommunal, təhsil, tibbi xidmət və s. sosial xidmət sahələrinə olan tələbatların ödənilməsində xeyli irəliləyişlər olsa da, regionlarda, o cümlədən Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastruktur təsərrüfatına genişmiqyaslı investisiya qoyuluşunun həyata keçirilməsi zəruridir. Lənkəran-Astara iqtisadi rayonunda mənzillərin planlaşdırılması və tikintisi bazarda mənzillərə olan tələbatın nəzərə alınması ilə həyata keçirilməlidir.

Lənkəran-Astara bir sıra sosial infrastruktur göstəricilərinə görə Azərbaycanın nisbətən inkişaf etmiş iqtisadi rayonlarından biridir. Bununla belə, yerli büdcədən hər nəfərə düşən vəsaitin məbləğinin orta respublika göstəricisindən aşağı olmasını əsas gətirərək burada müəyyən geriliklərin olduğu əsaslandırılır. Belə ki, dövlət büdcəsindən maliyyələşmənin aşağı olması sosial infrastrukturun inkişafına məhdudlaşdırıcı təsir göstərir. Bu baxımdan iqtisadi rayonda elm, təhsil, səhiyyə, mədəniyyət, incəsənət və s. sahələrini dövlətin maliyyələşdirilməsi daha da gücləndirilməlidir.

Sosial infrastruktur sahələrinin yaxşılaşdırılması insanların rahatlığının təmin olunmasına, sağlamlığına mənfi təsir göstərə biləcək amillərin aradan qaldırılmasına səbəb olmalıdır. Yeni açılan iş yerlərində insanların mənəvi tələbatlarının lazımi səviyyədə ödənilməsi, zəruri məsələlərdəndir.

Beləliklə, Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastruktur sahələri zamanın tələblərinə uyğun olaraq modernləşdirilməli və yenidən qurulmalı, bu istiqamətdə dövlətin gördüyü işlər gələcəkdə də davam etdirilməlidir. Əhaliyə göstərilən xidmətlərin adambaşına düşən göstəriciləri yüksəldilməli, onların keyfiyyəti müasir tələblər səviyyəsində təşkil olunmalıdır. Qonşu ölkə ilə həmsərhəd olma amili, dağlıq və ya düzən ərazilərin geniş yayılması, su ilə təminat probleminin mövcudluğu, sayı getdikcə artan əhalinin sıxlığının yüksəlməsi, miqrasiyanın tənzimlənməsi və demoqrafik vəziyyətin stabil saxlanmasının vacibliyi kimi amillər iqtisadi rayonda sosial sfera ilə bağlı bütün məsələlərin yaxın zamanda həllini zəruri edir.

# NƏTİCƏ

1. Lənkəran-Astara iqtisadi rayonunda sosial infrastrukturun inkişaf xüsusiyyətləri tədqiq olunmuş və müəyyən edilmişdir ki, regionda sosial infrastruktur sahəsində əsaslı irəliləyişlər 1970-1980-ci illərdə və Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra, yəni 2004-cü il «Regionların sosial-iqtisadi inkişafı Dövlər Proqram»ları qəbul edildikdən sonra baş vermişdir.

2. Lənkəran-Astara iqtisadi rayonunun təbii-şəraiti və iqtisadi potensialının qiymətləndirilməsi aparılmış, sosial infrastrukturun ərazi təşkilində mənzil fondunun 30,1%-i, təhsil müəssisələrinin 22,3%-i, tibbi xidmətin isə 19,9%-i dağlıq, müvafiq olaraq 69,9%, 77,7% və 80,1% düzənlik ərazilərin payına düşdüyü müəyyən olunmuşdur. Bu da dağlıq və düzənlik ərazilər arasında ciddi fərqlərin olduğunu sübut edir.

3. Lənkəran-Astara iqtisadi rayonunun inzibati rayonları üzrə sosial infrastruktur sahələrinin inkişaf səviyyəsi müəyyən edilmişdir. Belə ki, ümumi mənzil fondunun 76,4%-i Masallı, Lənkəran, Cəlilabad, kommunal xidmətlərin (elektrik, qaz, su, kanalizasiya) 53,2%-i Lənkəran, Astara, Masallı, sərnişin daşınmanın 64,1%-i Lənkəran, Cəlilabad, ümumitəhsil müəssisələrinin 41,3%-i Cəlilabad, Lerik (onlarda oxuyan şagirdlərin isə 49,5%-i Lənkəran, Cəlilabad), tibbi xidmətin 47,8%-i Lənkəran, Cəlilabad inzibati rayonlarının payına düşür. Regionda sosial infrastruktur sahələrinin inkişafı baxımından geridə qalan inzibati rayonlar Lerik və Yardımlıdır.

4. Mənzil təminatı və komunal xidmətlərdə əsas problemlər mənzil fondu, kanalizasiya, qazlaşdırma, su xidmətlərinin aşağı olması, təhsil sahəsində kənd məktəblərində müəllim çatışmazlığı, tibb sahəsində ixtisaslı kardların az olması, turizm sahəsində mehmanxana və mehmanxana tipli müəssisələr, müalicə müəssisələri və sanatoriyaların müasir tələblərə cavab verməməsidir.

5. Lənkəran-Astara iqtisadi rayonu sosial infrastrukturun bəzi göstəricilərinin ölkədə payının aşağı olmasına baxmayaraq, həkimlərin sayında Naxçıvan, Dağlıq Şirvan, Quba-Xaçmaz,Yuxarı Qarabağ iqtisadi rayonlarından, orta tibb işçilərinin sayında Naxçıvan, Dağlıq Şirvan, Quba-Xaçmaz,Yuxarı Qarabağ iqtisadi rayonlarından, xəstəxanaların sayına görə Dağlıq Şirvan, Quba Xaçmaz, Şəki-Zaqatala iqtisadi rayonlarından, məktəbəqədər təhsil müəssələrin sayına görə Naxçıvan, Dağlıq Şirvan, Quba-Xaçmaz,Yuxarı Qarabağ, əyani ümümitəhsil müəssələrin sayına görə Dağlıq Şirvan, Quba-Xaçmaz,Yuxarı

Qarabağ, Şəki-Zaqatala iqtisadi rayonlarına nisbətən xeyli inkişaf etmişdir.

## TƏKLİFLƏR

1. İqtisadi rayon daxilində əhalinin məskunlaşma xüsusiyyətlərini və göstərilən tibbi xidmətlərin operativliyini təmin etmək üçün gələcəkdə tibb müəssələrinin kadrlarla təminatını yüksəltmək, maddi texniki təchizatı təmin etmək zəruridir.

2. İqtisadi rayonun ərazisi turizmin müxtəlif istiqamətlər üzrə daha da genişləndirilməsi üçün çox əlverişli imkanlara malikdir. Ərazidə  müxtəlif kənd təsərrüfatı məhsullarının yetişdirilməsi istirahət obyektlərinin yerli qida məhsulları ilə təmin olunmasına imkan yaradır. Komfort və sərfəli qiymətlərlə istirahətə imkan verən iki və üç ulduzlu otellərin saylarının artırılmasına ehtiyac duyulur.

3. Mənzil tikintisi və kommunal xidmətlərin səviyyəsini qaldırmaq üçün regionda fəaliyyət göstərən özəl şirkətlərə dövlət dəstəyi göstərilməli və onlara sərmayə qoyuluşu üçün uzun müddətli kreditlər verilməlidir.

4. Regionda yol nəqliyyat infrastrukturu yaxşılaşdırılmalı, rayon mərkəzləri ilə kənd yaşayış məntəqələri arasında nəqliyyat əlaqələrinin fəaliyyəti ilin bütün fəsillərində təmin olunmalıdır. Sərnişin daşınmada Lerik, Yardımlı və Masallı iznibati rayonlarında yolların keyfiyyət göstəriciləri yaxşılaşdırılmalıdır.

5. Gələcəkdə iqtisadi rayonda dövlət və özəl sektor tərəfindən sosial infrastruktur sahələrinə investisiya qoyuluşu genişləndirilməli, kiçik və orta sahibkarlara kredit verilməsi, vergi güzəştlərinin tətbiqi, bu proseslərin şəffaflığının təmin olunması, iqtisadi stimullaşdırmanın digər müxtəlif vasitələrindən istifadə edilməsi məqsədəuyğundur.

6. Lənkəran-Astara iqtisadi rayonunda əhalinin tarixi adət-ənənələrini nəzərə alaraq, regionda demoqrafik potensialı qoruyub saxlamaq üçün özəl şirkətlərin mənzil tikintisinə investisiya qoyuluşu stimullaşdırılmalı, Lerik və Yardımlı iznibati rayonlarında qazlaşdırma işləri sürətləndirilməli, iqtisadi rayonun kənd məktəblərində müəllim çatışmamazlığın aradan qaldırılması üçün verilən əmək haqlarının artırılması və güzəşlərin tətbiqi, turizm sektorunun inkişafı üçün Astara, Cəlilabad və Yardımlı iznibati rayonlarında müasir tipli mehmanxanaların tikintisi regionun gələcək inkişafıına müsbət təsir göstərir.

**Dissertasiya mövzusu üzrə aşağdakı məqalə və tezislər çap olunmuşdur:**

1. F.Q.Niftiyev. Lənkəran-Astara iqtisadi rayonunun sosial infrastruktur sahələrinin ərazi təşkilində təbii şəraitin rolu // BDU-nun "Müasir coğrafiya elminin tətbiqi istiqamətləri" mövzusunda keçirdiyi elmi-praktik konfrans. Bakı, 2014, s. 313-320.
2. F.Q.Niftiyev. Вопросы развития социальной инфраструктуры и динамики ее отраслей в Ленкаран-Астаринском экономическом районе Азербайджана // XXXV международная научно-практическая конференция «Инновации в науке», №7. Новосибирск, 2014, с. 151-159.
3. F.Q.Niftiyev. Lənkəran-Astara iqtisadi rayonunda mənzil-kommunal təsərrüfatının inkişafı və ərazi təşkili problemləri /Milli Aviasiya Akademiyası "Elmi Məcmuələr", cild 17, № 1. Bakı, 2015,s. 52-59 (N.Ə.Paşayevlə birgə)
4. F.Q.Niftiyev. Lənkəran-Astara iqtisadi rayonunun tibbi xidmət sahəsi göstəricilərinin statistik təhlili/Milli Aviasiya Akademiyasının "Elmi əsərləri"№ 1. Bakı, 2015, s.179-189. (N.Ə.Paşayevlə birgə)
5. F.Q.Niftiyev. Lənkəran-Astara iqtisadi rayonunda ümumtəhsil müəssisələrinin ərazi təşkilinə təsir göstərən amillərin öyrənilməsi / "Coğrafiya və təbii resurslar"№ 1. Bakı, 2015, s.112-115.
6. F.Q.Niftiyev. Territorial organization and improvement of transportation of passengers in Lankaran-Astara region of Azerbaijan/International Journal of Scientific Research and Innovative Technology, Vol. 2, No. 9.United Kingdom, 2015, pp. 22-30.
7. F.Q.Niftiyev. Lənkəran-Astara iqtisadi rayonunda səhiyyə müəssisələrinin ərazi təşkili və onlarda göstərilən xidmət səviyyəsinin yüksəldilməsi/ "Coğrafiya və təbii resurslar"№ 1. Bakı, 2016, s. 89-92.
8. F.Q.Niftiyev. Lənkəran-Astara iqtisadi rayonunun sosial infrastrukturun inkişafında sərnişin daşınma xidmətinin rolu / Bakı Dövlət Universitetinin "Azərbaycan regionlarının coğrafi problemləri" Bakı 2016,s. 122-125.
9. F.Q.Niftiyev. Современное состояние и возможности дальнейшего развития отраслей социальной инфраструктуры в Ленкаран-Астаринском экономическом районе Азербайджана / Приволжский Научный Вестник, № 12-1 (64). Ижевск, 2016, с. 86-91.

**Ф.Г.Нифтиев**

# ГЕОГРАФИЧЕСКИЕ ПРОБЛЕМЫ РАЗВИТИЯ И ТЕРРИТОРИАЛЬНОЙ ОРГАНИЗАЦИИ СОЦИАЛЬНОЙ ИНФРАСТРУКТУРЫ В ЛЕНКАРАН-АСТАРИНСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

## РЕЗЮМЕ

В диссертационной работе исследована роль социальной инфраструктуры в социально-экономическом и демографическом развитии Ленкаран-Астаринского экономического района, выявлены некоторые направления, связанные с социальной инфраструктурой экономического района. Диссертационная работа включает введение, три главы, выводы и предложения, а также список литературы из 110 наименований.

**Во введении** изучены актуальность темы, степень изученности проблемы, цели и задачи, предмет и объект исследования, теоретические и методологические основы, информационная база, научная новизна и практическое значение.

**В первой главе** изложены значение социальной инфраструктуры и теоретико-методологические основы ее изучения. Также, исследованы особенности экономико-географического развития отраслей социальной инфраструктуры, проанализирована ее роль в хозяйственной системе и факторы, обуславливающие ее развитие.

**Во второй главе** проанализировано развитие отраслей социальной инфраструктуры. Выявлены различия между административными районами региона по территориальной организации и уровню развития отдельных отраслей социальной инфраструктуры. Также указаны показатели социальной инфраструктуры на душу населения, как основные индикаторы развития этой сферы.

**В третьей главе** определены пути совершенствования и перспективного развития социальной инфраструктуры экономического района. Исследованы проблемы, имеющиеся в ней и пути их решения, определена роль реализованных государственных программ в развитии ее отраслей, отмечены перспективные направления территориальной организации данной сферы.

В заключении изложены научные выводы и проведенного исследования, даны рекомендации, отражающие содержание работы. По теме диссертации было опубликовано 9 научных работ.

**F.Q.Niftiyev**

# GEOGRAPHICAL PROBLEMS OF DEVELOPMENT AND TERRITORIAL ORGANIZATION OF SOCIAL INFRASTRUCTURE IN LANKARAN-ASTARA ECONOMIC REGION

## SUMMARY

The dissertation studies the role of social infrastructure in socio-economic and demographic development of Lankaran-Astara economic-geographic region, while certain priorities related to certain areas of social infrastructure of the economic region are identified. The dissertation includes an introduction, three chapters, conclusions and recommendations, as well as the list of 110 references.

In the introduction part, topicality of the theme, the previous relevant research experience, goals and objectives, subject and object as well as the theoretical and methodological bases of the study, data-base, scientific novelty and also practical value of the study are shown.

The concept of social infrastructure and study of its theoretical and methodological foundations are given in the first chapter of the dissertation. Beside with this, the features of economic and geographical development of the branches of social infrastructure are studied. The role of social infrastructure in the economic system and also the factors contributing the development of this sphere are analyzed.

In the second chapter of the dissertation, the development of social infrastructure, namely housing and communal services, education, medical services, transportation of passengers, tourism and other industries are analyzed. The differences between administrative regions for territorial organization and level of development of certain branches of social infrastructure are shown. The per capita indicators of social infrastructure as the main indicators of development of this sphere are reflected in this chapter, too.

The ways of improvement and perspective development of social infrastructure are identified in the third chapter of the dissertation. In this chapter, the problems available in the social infrastructure and the ways of their solutions are investigated. The role of implemented governmental programs in the development of social infrastructure, and also theperspective directions of the territorial organization of this sector are defined.

İn conclusion, scientific results and recommendations reflect the content of the work and innovation are proposed. Nine articles have been published.

Format: $60x84^{16/1}$

Tiraj:100

AMEA-nın mətbəəsində çap olunub

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ГЕОГРАФИИ им.акад. Г.А.АЛИЕВА**

*На правах рукописи*

**Фамиль Гагамалы оглы Нифтиев**

# ГЕОГРАФИЧЕСКИЕ ПРОБЛЕМЫ РАЗВИТИЯ И ТЕРРИТОРИАЛЬНОЙ ОРГАНИЗАЦИИ СОЦИАЛЬНОЙ ИНФРАСТРУКТУРЫ В ЛЕНКАРАН-АСТАРИНСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

5401.01-Экономическая география

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по географии

**Баку-2017**